Baku State University
Legal Discussion Forum

# HÜQUQ MÜZAKİRƏ FORUMU

---

# TƏQDİMATÇILAR ÜÇÜN BƏLƏDÇİ

## HÜQUQ MÜZAKİRƏ FORUMU HAQQINDA

Hüquq Müzakirə Forumu (bundan sonra- "HMF") Bakı Dövlət Universiteti Hüquq fakültəsi Tələbə Elmi Cəmiyyətinin (bundan sonra- "TEC") nəzdində 2013-cü ilin dekabr ayından etibarən fəaliyyət göstərir. Hüquqi nitq, arqumentasiya və araşdırma bacarıqlarının formalaşması və inkişafı üçün təşkil edilən forumlarda əvvəlcədən müəyyən olunmuş mövzu ətrafında müzakirə aparılır. Hüquqi müzakirə tələbələrdə tənqidi düşüncə və ünsiyyət bacarıqlarını inkişaf etdirməklə yanaşı, həmçinin onların hüquq elmini daha dərindən dərk etməsində böyük rol oynayır. Bununla yanaşı, hüquqi problemlərin həllinin tapılmasına yönəlmiş forumlarda tələbələrin hüquqi təhlil bacarıqları da inkişaf edir.

## TƏŞKİLATÇI

TEC HMF-nin təşkilatçısı və idarəçisi kimi çıxış edir. TEC sədri tərəfindən HMF-nin Baş Müşaviri kimi təyin edilmiş şəxs Təşkilatçı adından kommunikasiyalarda iştirak edir. Baş Müşavirin nəzarəti altında HMF-nin müşavirləri isə təşkilatçılığı icra edirlər.

## FORUMLARIN MÖVZU VƏ STRUKTURU

- **Mövzu Seçimi.**

Mövzular, əsasən, müəyyən bir mübahisəli hüquqi məsələnin və ya hüquqi problemin əsasında qurulur. İctimai qaydaya və asayişə zərər vura biləcək, Azərbaycan Respublikası Konstitusiyası və digər qanunvericilik aktlarının müəyyən etdiyi normalara zidd olan dini, siyasi, iqtisadi və sosial təbliğatın aparılması ilə bağlı mövzunun seçilməsinə yol verilmir.

- **Forumların Strukturu.**

a. Forumlar nəzəri və praktiki olmaqla iki hissədən ibarət olur. Nəzəri hissədə müvafiq mövzu ilə bağlı əsas anlayış, konsepsiya və yanaşmalar, digər nəzəri məsələlər barədə izah verildiyi halda, praktiki hissədə mövzu ilə əlaqəli müxtəlif məhkəmə qərarları, kazuslar ətrafında müzakirələr aparılır.

**Nümunə:**

*Forumun nəzəri hissəsində:*
*- Mübahisə və konflikt konsepsiyalarının əsasları;*
*- Med-Arb və onun işləmə mexanizmi;*
*- Sözügedən prosesdə diqqət edilməli olan etik məsələlər;*
*- Müqavilələrə Med-Arb müddəasının daxil edilməsi;*

*- Yerli qanunvericilik kontekstində tətbiqinin mümkünlüyü və s. məsələlər haqqında məlumat veriləcəkdir.*

*Forumun praktiki hissəsində isə Med-Arb müddəasının və qaydalarının hazırlanması, həmçinin mövzu ilə bağlı müxtəlif kazuslar əsasında müzakirə aparılacaqdır.*

b. Təqdimatçı istəyindən asılı olaraq[1] forumun əvvəlində və ya sonunda mövzu ilə əlaqəli interaktiv tədbirlər həyata keçirə bilər. Belə tədbirlərə iştirakçılar arasında sorğuların keçirilməsi nümunə ola bilər.

Sorğunun məqsədləri arasında iştirakçıların forumdan əvvəl biliklərinin öyrənilməsi, onlarda mövzu ilə bağlı müəyyən fikrin formalaşdırılması və ya forumdan əldə etdikləri biliklərin yoxlanılması kimi amillər durur. Sorğu şifahi və ya onlayn platformalar vasitəsilə keçirilə bilər.

## FORUMLARIN TƏŞKİLİ

Forumlar, tədris ili boyunca bayram və xüsusi günlər, imtahan ayları istina olmaqla, hər həftənin bazar günü saat 11:00-da təşkil olunur. Forumların davam etmə müddəti 2 saatdan artıq olmayaraq müəyyən edilmişdir. Praktiki hissəyə keçmədən öncə verilən 10 dəqiqəlik fasilə də bu müddətə daxildir. Bundan əlavə, istisna hallarda baş tutmayan forumlar barədə təqdimatçılar və iştirakçılar əvvəlcədən ağlabatan müddət ərzində məlumatlandırılır.

## TƏQDİMATÇININ ÖHDƏLİKLƏRİ

- **Cədvəl.**

Forum keçiriləcək həftənin **bazar ertəsinə qədər** təqdimatçı <u>mövzu, onun nəzəri və praktiki hissələri və ədəbiyyat siyahısı</u> barədə məlumatı imeyl və ya digər müvafiq rəqəmsal platformalar (məsələn, Whatsapp, Linkedln) vasitəsilə göndərməlidir. Bu qayda vebsayt vasitəsilə qeydiyyatdan keçən təqdimatçılara şamil olunmur. Forum həftəsinin **cümə axşamına qədər** sual postu üçün mətn, həmçinin müvafiq sualın cavabını əhatə edən mətn, **cümə gününə qədər** isə forumda təqdim olunacaq prezentasiya faylı Baş Müşavirə göndərilməlidir.[2]

[1] Təşkilatçı ilə qarşılıqlı razılaşdırıldıqdan sonra tətbiq oluna bilər.

[2] Qeyd edilmiş cədvəl minimum nəzərdə tutulmuş tarixlərdir. Müvafiq məlumatlar həmin vaxtlardan əvvəl də göndərilə bilər.

- **Ədəbiyyat Siyahısı.**

Təqdimatçıların forum ərzində istinad etdikləri mənbələr etibarlı olmalıdır. Belə ki, bloqlar, xəbər saytları, Wikipedia kimi mənbələr etibarlı mənbə hesab olunmur. Yalnız normativ aktlar, elmi əsərlər, böyük nüfuzlu xəbər saytları (The New York Times, Washington Post və s. kimi) və rəsmi vebsaytlara istinad məqbul hesab olunur. Statistik məlumatlara isə yalnız rəsmi mənbələr vasitəsilə istinad gətirmək olar. Mənbələrin seçilməsi və qeyd olunması zamanı BDU Tələbə Hüquq Jurnalının Jurnal Siyasətindən istifadə oluna bilər.

**Nümunə:**

*1. "Mediasiya haqqında" Azərbaycan Respublikasının Qanunu (2021).*

*2. David C. Elliot, MED/ARB: Fraught with Danger or Ripe with Opportunity, 34 Alberta Law Review 163 (1995).*

*3. Dana Lavi, Three is not a Crowd: Online Mediation-Arbitration in Business to Consumer Internet Disputes, 37 Journal of International Law 871 (2016).*

*4. Thomas J. Stipanowich, Arbitration, Mediation, and Mixed Modes: Seeking Workable Solutions and Common Ground on Med-Arb, Arb-Med, and Settlement-Oriented Activities by Arbitrators, 26 Harvard Negotiation Law Review 265 (2021).*

*5. Alice Dejollier, La med-arb : voie d'avenir en droit belge? Fondements et perspectives d'une justice alternative (2015).*

*6. Christopher Newmark and Richard Hill, Can a Mediated Settlement Become an Enforceable Arbitration Award?, 16 Arbitration International 81(2000).*

*7. Allan Barsky, Med-Arb: Behind the Closed Doors of Hybrid Process, 51 Family Court Review 637 (2013).*